# Sumqayıtda "Savaş sevdası"



Mayın 25-i Sumqayıt şəhər Əli Kərim adına "Poeziya evi"ndə Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Prezident təqaüdçüsü, Beynəlxalq "Rəsul Rza" mükafatçısı İnqilab İsaqın "Savaş sevdası" şeirlər kitabının təqdimatı keçirildi.

İnqilab İsaq paytaxtdan kənarda ədəbi fəaliyyətlə məşğul olsa da, saysız-hesabsız nüfuzlu mətbu orqanlar onun yaradıcılıq nümunələrini işıqlandırıb: məncə, "Ulduz" və "Azərbaycan" jurnallarının, "Ədəbiyyat qəzeti"nin adını çəksək, bəs edər. Şairin dövri mətbuatda sevərək oxuduğumuz şeirləri onun respublika üzrə tanınmış, istedadlı qələm sahibi olduğunu sübuta yetirir. Uzun sözün qısası, İnqilab İsaq Gəncə ədəbi mühitinin uğurudur.

"Poeziya evi"ndə mən də var idim. Məndən əlavə: İbrahim İlyaslı, Zahid Xəlil, Rafiq Yusifoğlu, Baba Babayev, İslam Sadıq, Nadir Azayoğlu, Tofiq Nurəli, Fəxrəddin Teyyub, Ofelya Babayeva, Tofiq Xəlil, Məhəmməd Rəsuloğlu, Fəxrəddin Əsəd, Nurafiz Hüseynov, Mail Yaqub, Gülnar Ümid, Elvin Əlizadə, Zülfiyyə Yaqub və başqa qələm adamları da tədbirdə iştirak edirdilər.

"Poeziya evi"nin direktoru İbrahim İlyaslı tədbiri açaraq İnqilab İsaqın bədii yaradıcılığından, insani keyfiyyətlərindən danışdı.

Filologiya elmləri doktoru, professor, şair Zahid Xəlil müəlliflə bağlı xatirələrini bölüşdü.

Filologiya elmləri doktoru, professor, şair Rafiq Yusifoğlu çıxışında daha çox qələm sahibinin uşaq şeirlərinə münasibət bildirdi.

Filologiya elmləri doktoru, şair İslam Sadıq İnqilab İsaqın yaradıcılığı da daxil olmaqla, müasir poeziyanın ümumi vəziyyətindən söhbət açdı.

Dəyərli ziyalımız, istedadlı qələm sahibi Ofelya Babayeva İnqilab İsaqın şeirləri ilə bağlı müsbət fikirlərini dilə gətirdi.

Şairlər Gülnar Ümid və Zülfiyyə Yaqub İnqilab İsaqın şeirlərindən bir neçəsini səsləndirdilər.

Digər tədbir iştirakçıları da öz çıxışlarında İnqilab İsaqı təbrik edərək yeni uğurlar arzuladılar.

Tədbiri gözəlləşdirən cəhətlərdən biri də kitab müəllifinin öz şeirlərini özünün deməsi idi.

Sonda İnqilab İsaq tədbir iştirakçılarına təşəkkürünü bildirərək onlara imzalı kitabını bağışladı.

*Elvin İNTİQAMOĞLU*